❒ Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədovun bu günlərdə doqquz ayın nəticələrinə və qarşıda duran vəzifələrə həsr olunmuş hesabat məruzəsində səslənən rəqəm və göstəricilər, inkişaf və yüksəlişin müqayisəli təhlili yığıncaq iştirakçılarında, elə mənim özümdə də böyük maraq oyatdığından rayonda görülən işlər, həyata keçirilən tədbirlər haqqında əhatəli məqalə yazmağı qərara almışdım. Son illərin sosial-iqtisadi və mədəni mənzərəsi, yüksəlişin dinamikası ciddi uğurlardan xəbər verirdi.

# Tərtərin bərəkətli payızı








Əlbəttə, burada, ilk növbədə, uğura aparan yollar, həlledici amillər, məsələnin mənəvi-psixoloji cəhətləri barədə düşünmək lazım gəlir. Aydın görünən və mütləq həqiqət isə belədir: Müstəqil və suveren ölkəmizdə bərqərar olan sabitlik, ölkə Prezidenti İlham Əliyevin apardığı qətiyyətli və uzaqgörən daxili və xarici siyasət xətti, bütün bölgələrə, o cümlədən Tərtərə olan gündəlik diqqət və qayğısı. Mən bu sətirləri yazarkən gözlərim önündə Prezidentin Tərtərə, o cümlədən cəbhə xəttinə tarixi səfərləri canlanır. Cəbhə bölgəsində düşmənin, necə deyərlər, ikiaddımlığında yaşayan insanlar üçün bundan böyük dayaq, inam və ümid olarmı? Müşahidələrimizə əsaslanaraq deyə bilərəm ki, ölkə Prezidentinin əsgər və zabitlərlə görüşündən sonra kənd sakinləri əkin-biçin sahələrini cəbhə xəttinə bir az da yaxınlaşdırmış, bir metr də olsun boş torpağın qalmasına yol verməmişlər. Onu da əlavə edək ki, son illər Tərtər rayonunda on hektarlarla ərazi əkin dövriyyəsinə daxil edilmişdir.

Məsələnin digər tərəfi isə yerlərdə işin düzgün təşkili, təşkilat-idarətmə məsələlərinin təkmilləşdirilməsi, ardıcıl və sistemli şəkildə qurulan icra intizamıdır. Ədalət naminə deyək ki, məsələyə bu baxımdan yanaşdıqda, Tərtər Rayon İcra Hakimiyyətində nümunə götürülsü cəhətlər çoxdur. İqtisadi, sosial və mədəni məsələlərin həllinə kompleks münasibət, çevik, operativ idarəetmə, insan amili, onun vacib sosial ehtiyaclarının vaxtında və həssaslıqla yerinə yetirilməsi nəticə etibarilə əldə edilmiş uğurların ildən-ilə yüksəlməsinə səbəb olmuşdur.

Bu yerdə təkcə cari ilin ötən ayları ərzində əldə edilmiş uğurları əks etdirən bəzi xarakterik fakt və rəqəmləri bir daha yada salmaq yerinə düşər.

Ölkə başçısının diqqət və qayğısı sayəsində son illər bütün sahələri əhatə edən tikinti-quruculuq və abadlıq işləri sürətlə davam etdirilmişdir. Azərbaycan Respublikası Prezidentinin sərəncamına uyğun olaraq, Tərtər şəhərində 20 çoxmənzilli yaşayış binasının fasad hissələri və giriş blokları əsaslı təmir olunmuşdur. Binaların həyətlərinə asfalt örtüyü vurulmuşdur.

Şəhərin N.İsgəndərov, N.Nərimanov, M.Hüseynzadə küçələrində abadlıq və yenidənqurma işləri aparılmış, istinad divarları mişar daşı ilə hörülmüş, bəzək daşları ilə üzlənmiş, işıq, qaz, su-kanalizasiya, rabitə xətləri səliqəyə salınmışdır. Ə.Paşayev küçəsinin girişində şəhid Ədalət Paşayevin barelyefi quraşdırılmışdır.

Heydər Əliyev parkında əsaslı təmir işləri davam etdirilmişdir. Parkın ərazisində olan səki və meydançalar yenidən qurulmuş, yaşıllıq zolaqları genişləndirilmiş, minlərlə gül kolu əkilmiş, fantan, oturacaqlar, işıq dirəkləri təmir olunmuşdur.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən uzunluğu 21,5 kilometr olan Buruc-Güləbatlı-Xoruzlu-Kəbirli-Bayandurlu-Qaradağlı avtomobil yolunun əsaslı təmir və yenidənqurulması işləri başa çatdırılmışdır. Tərtər-Hindarx avtomobil yolunun Tərtər rayonunun ərazisindən keçən hissəsində əsaslı təmir işlərinə başlanılmışdır.

Hazırda Olimpiya İdman Kompleksinin, Xalça fabriki, Bayraq müzeyinin və 100 yerlik körpələr evi-uşaq bağçasının tikintisi davam etdirilir.

Şəhərin Heydər Əliyev prospektində rayon icra hakimiyyətinin inzibati binasının tikintisi üçün torpaq sahəsi ayrılmışdır. Yaxın vaxtlarda tikinti işlərinə başlanacaqdır.

Şəhər 6 saylı tam orta, Qazyan kənd ümumi orta məktəblərin binaları, Seyidimli kənd tam orta məktəbin 1 korpusu əsaslı təmir olunmuş, Bayandur və Poladlı kəndlərində modul tipli məktəblər istifadəyə verilmişdir. Yaponiya səfirliyi tərəfindən Qaradağlı kənd tam orta məktəbinin 5 sinif otağı əsaslı təmir olunmuş, müasir inventar və avadanlıqlarla təchiz edilmişdir.



Bundan başqa, Kovdadıq və Zolgəran kəndlərində modul tipli məktəblərin tikintisi nəzərdə tutulmuşdur. Rayonda ekoloji tarazlığın qorunması məqsədilə Bərdə, Ağdam və Gəncə istiqamətində yol kənarında və yaşayış məntəqələrində, meşə zolaqlarında 26,5 mindən çox müxtəlif növ ağaclar, 4 min gül kolu əkilmişdir.

İqtisadiyyatının əsasını aqrar sahənin təşkil etdiyi Tərtərdə bu istiqamətdə uğurlu nəticələr əldə edilmişdir. Belə ki, kənd təsərrüfatı məhsulunun ümumi həcmi əvvəlki ilin müvafiq dövrünə nisbətən 1,9 faiz artaraq 54 milyon 465,5 manat təşkil etmişdir. Bunun 31 milyon 899 min manatı bitkiçilik, 22 milyon 566,4 manatı heyvandarlıq sahəsinin hesabına formalaşmışdır.

Ümumiyyətlə, 2018-ci ilin məhsulu üçün 26 min 108,5 hektar sahədə kənd təsərrüfatı bitkiləri əkilmişdir. Bunun 11 min 725,9 hektarı dənli və dənli paxlalı, 5 min 603,9 hektarı texniki, 1514,6 hektarı kartof, tərəvəz və bostan, 7 min 264,1 hektarı yem bitkiləri olmuşdur. Dənli və dənli paxlalı bitkilərin əkin sahəsi 19 faiz artmışdır. 3 min 300 hektar sahədə pambıq, 859 hektar sahədə şəkər çuğunduru, 1445 hektar sahədə günəbaxan əkilmişdir. 2017-ci ilə nisbətən pambıq əkini 5,7 faiz artmışdır.

Cari ilin məhsulu üçün 11 min 556,3 hektar sahədə taxıl əkilmişdir. Bunun 7 min 545,6 hektarı buğda, 4 min hektarı arpa olmuşdur, taxıl sahələrindən 44 min 175,2 ton məhsul yığılmışdır. Hər hektardan orta məhsuldarlıq buğda üzrə 41,1 sentner, arpa üzrə 32,9 sentner təşkil etmişdir. Ötən ilə nisbətən buğdanın hər hektardan məhsuldarlığı 2,8 sentner, arpanın məhsuldarlığı 1,5 sentner artmışdır.

İndiyədək rayonda 23 min ton şəkər çuğunduru, 3655,8 ton günəbaxan, 530,2 ton dən üçün qarğıdalı, 39,8 ton lobya, 70,9 ton noxud, 5 min 463,6 ton kartof, 12 min 230,8 ton tərəvəz və s. istehsal edilmişdir.

Ötən illərdə olduğu kimi, rayonda heyvandarlığın inkişaf etdirilməsi və məhsuldarlığın artırılması üçün ardıcıl tədbirlər davam etdirilmişdir. Rayon üzrə iribuynuzlu mal-qaranın sayı 27,5 min baş, qoyun-keçilərin sayı isə 58,8 min baş olmuşdur. Ötən ilin eyni dövrü ilə müqayisədə iribuynuzlu mal-qaranın sayı 361 baş artmışdır.

Bu müddətdə ümumi məhsul buraxılışının həcmi 132,1 milyon manat təşkil etmişdir. Kənd təsərrüfatı məhsulunun həcmi1,9 faiz, sənaye məhsulunun həcmi 2,1 faiz, nəqliyyat xidmətlərinin həcmi 1,3 faiz və s. artmışdır. Bütün maliyyə mənbələri hesabına əsas kapitala yönəldilmiş investisiyaların həcmi 26 milyon 568,5 min manat təşkil etmişdir ki, bunun da 24 milyon 966,6 min manatı tikinti-quraşdırma işlərinə yönəldilmişdir. Orta aylıq əmək haqqı 2017-ci ilin müvafiq dövrünə nisbətən 9,4 faiz artaraq 262,8 manat təşkil etmişdir. 2 min 877 yeni iş yeri açılmışdır ki, onların da 363-ü daimidir.



Məlum olduğu kimi, 2016-cı ildə Tərtər şəhərində içməli su və kanalizasiya sistemi tikilib istifadəyə verilmişdir. Layihənin davamı olaraq 2017-ci ildə 18 min 440 nəfərin yaşadığı 11 kəndə içməli su xətləri çəkilmiş, bulaqlar quraşdırılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 9 aprel 2018-ci il tarixli "Əhalinin içməli su təminatının yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında" sərəncamına əsasən, 2018-ci ildə rayonun daha dörd kəndində əhalinin içməli su təminatının yaxşılaşdırılması nəzərdə tutulmuşdur. Hazırda həmin kəndlərə içməli su xəttinin çəkilişi başa çatdırılmışdır.

2018-ci ildə rayonun daha səkkiz kəndində yeni qaz xətləri çəkilmiş və sayğaclar quraşdırılmışdır. Bununla da Tərtər rayonun bütün yaşayış məntəqələrinin 100 faiz mavi yanacaqla təmin olunması başa çatdırılmışdır.

Bu payız günlərində yenidən Tərtərdə olduq. Düzdür, bütün sahələrdə işin ahəngi yüksək idi. İstər tikinti meydançalarında, istər sənaye müəssisələrində, istərsə də abadlıq və quruculuq sahəsində. Ancaq etiraf edək ki, əsas diqqət, bütün imkan və səylər pambıq yığımına yönəldilib. Bu, heç də təsadüfi deyil. Əvvəla, əkin-biçin sahələrinin böyük bir hissəsi cəbhə xəttində yerləşir. Dığər tərəfdən, əsasən dağətəyi ərazidə yerləşən Tərtərdə havalara o qədər də bel bağlamaq olmaz. Murovdan əsən soyuq küləklər, buludlu havalar qışın soyuq nəfəsindən xəbər verir. Deməli, aylarla gərgin zəhmət hesabına yetişdirilmiş məhsulu tez və itkisiz toplamaq lazımdır.

Rayon icra hakimiyyətində yaradılmış operativ qərargah məhsul yığımının gedişini diqqət mərkəzində saxlayır. Ötən günün nəticələri təhlil edilir, yığımın sürəti harada yaxşıdır, harada geriləmə müşahidə olunur, hansı kəndlərdə pambıqyığan maşına daha çox ehtiyac var, məhsuldarlıq və s. məsələlər ciddi şəkildə öyrənilir. Yerlərlə sıx əlaqə, ortaya çıxan çətinliklərin operativ surətdə aradan qaldırılması isə aydın məsələdir ki, yığımın surətinə təsir göstərir.

Bu günün qalibləri isə bunlardır:



Fazil Vəliyev, Habil Ibrahimov, Miri Rzayev. Onlar hər hektardan orta hesabla 40-50 sentner "ağ qızıl" götürürlər. Bəyimsarov, Küçərli, Qaraqoyunlu, Hüsnəli, Qazıyan kəndlərinin pambıq sahələrində yığımın sürəti daha yüksəkdir.

Ümumiyyətlə, bu günə kimi Tərtərdə 6 min 700 tondan çox pambıq yığılmışdır. Məhsuldarlıq isə hələlik hər hektardan 30 sentnerdir. Başqa sözlə desək, "ağ qızıl" ustaları nəzərdə tutulmuş hədəfin bir addımlığındadır.

Daha bir bərəkətli mövsüm, daha bir uğurlu il sona yaxınlaşmaqdadır.

***Ziyəddin SULTANOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***

